# Sahibkarlığın inkişaf etdirilməsi və biznes mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılır



Ölkəmizdə vaxtında və operativ həyata keçirilən zəruri islahatlar, müvafiq tədbirlər iqtisadiyyatın mütəmadi surətdə artmasına zəmin yaradır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və qətiyyətli addımları sayəsində respublikamızda iqtisadi inkişaf prosesi uğurla davam etdirilir və həyata keçirilən sistemli dövlət proqramları nəticəsində xalqın rifahı daha da yüksəlir. Aparılmış sosial-iqtisadi islahatlar nəticəsində bazar iqtisadiyyatı üçün səciyyəvi qanunvericilik bazası yaradılmış, özəl sektorun fəaliyyəti üçün imkan genişlənmiş, ölkə iqtisadiyyatı məqsədyönlü konkret proqramlar əsasında idarə edilən iqtisadiyyata çevrilmişdir. Qısa zaman içərisində Azərbaycanda özəl sektorun inkişafı üçün siyasi-hüquqi və maddi dəstək yaradılmışdır. Bir sözlə, sahibkarlıq fəaliyyəti dövlətin daim diqqət mərkəzindədir.

Vurğulamaq lazımdır ki, əldə edilmiş hərtərəfli inkişaf fonunda ölkənin ayrı-ayrı fəaliyyət sahələrində müəyyən çatışmazlıqlar müşahidə olunur. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dediyi kimi, harada qüsurlar, çatışmayan cəhətlər varsa, aradan qaldırılmalıdır. Ölkə başçısının respublikada sahibkarlığın inkişaf etdirilməsi, səbəbsiz yoxlamalar aparılmasının qarşısının alınması, sahibkarlıq subyektləri üçün münbit şəraitin yaradılması barədə tapşırıqları yerinə yetirilir. Həyata keçirilən tədbirlər məhz ölkə başçısının səsləndirdiyi tapşırıqlara uyğun aparılır, sahibkarların daha da yaxşı işləməsi üçün şərait yaradılır. Sahibkarlığın inkişaf etdirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə sistemli tədbirlər davam etdirilir, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, daha mütərəqqi normativ-hüquqi baza formalaşdırılır. Prezident İlham Əliyevin dediyi kimi, sahibkarlığın inkişafı dövlət siyasətidir və bu siyasət hər keçən gün daha da güclənir və şaxələnir.

Ümumiyyətlə, müasir Azərbaycanda sahibkarlığın inkişafı ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider ölkədə özəl sektorun inkişaf etdirilməsinə, bu prosesin sürətləndirilməsinə və yaranan maneələrin aradan qaldırılmasına böyük önəm verirdi.

Qanunlar daxilində fəaliyyət göstərən hər bir müəssisənin və ya fiziki şəxsin dövlət qarşısında öhdəlikləri var. Qanunlara əməl etmək və fəaliyyət sahəsinə görə qazancından dövlətə vergi ödəmək hər bir sahibkarlıq subyektinin borcudur. Fəaliyyətimiz dövründə hər ay vaxtlı-vaxtında yaranan vergi borclarını ödəmişik. Vergi ödəməkdən hər birimizin vətəndaşlıq və qanun qarşısında borcumuzdur. Özəl qurumların fəaliyyətini yoxlayan çoxlu sayda dövlət qurumları, idarələr vardır. Bu yoxlamalar əksər hallarda özəl qurumların fəaliyyətinə əngəl olurdu. Bəzən bu cür yoxlamalar aylarla davam edir, bir-birini təkrarlayan idarələr eyni işi şəxsi məqsədləri üçün həyata keçirməyə çalışırlar. Rəsmi və qeyri-rəsmi yoxlamalar özəl qurumların iş rejimlərini pozur, onların normal fəaliyyətinə ciddi şəkildə mane olur. Bütün bunlardan bəzən iş adamlarının əli işdən soyuyur və müvafiq qurumlardan yuxarı instansiyalara şikayət edirlər.

Son dövrlərdə dünyada və regionumuzda gedən proseslər müəyyən iqtisadi çətinliklərə gətirib çıxarmışdır. Rusiya Federasiyasına qarşı tətbiq edilən iqtisadi sanksiyalar və neftin dünya bazarında qiymətinin aşağı düşməsi respublikamıza da təsirini göstərmişdir.

Bütün bunları təhlil edən ölkənin rəhbəri cənab Prezident İlham Əliyev son zamanlar bizim respublikada bu durumun pis nəticələrə gətirib çıxarmaması üçün önəmli addımlar atmışdır və atmaqdadır. Prezidentin idarəçilikdə yeni və mühüm dəyişikliklərə başlaması bütün respublika əhalisi üçün xeyli önəm daşıyır. Ölkə rəhbəri son zamanlar iqtisadi həyatımız üçün olduqca mühüm qərarlar qəbul edir. Sahibkarların yoxlanması 2 illiyə dayandırılır, Sahibkarlıq fəaliyyəti ilə bağlı bütün lisenziyalar "ASAN xidmət"ə verilir.

Cənab Prezident Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının yekunları ilə bağlı iclasındakı çıxışında sahibkarlıq sahəsində yoxlamalardan çoxsaylı şikayətlərin daxil olmasını, eləcə də lisenziyaların sayının həddindən artıq çox olmasını və bu halların qarşısının alınacağını qeyd etdi. 2015-ci il 19 oktyabr tarixdə cənab Prezident qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərə tutan qanun layihəsi göndərdi. Qanun layihəsinə əsasən 2015-ci il noyabr ayının 1-dən etibarən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılır. Çox mühüm və əhəmiyyətli bir qərardır. Prezidentin atdığı addımlar Azərbaycan iqtisadiyyatının belə demək mümkündürsə xilasıdır. Çünki qarşıdakı illərdə ölkə iqtisadiyyatı əsasən sahibkarların, aqrar sahənin, turizmin inkişafının, vergilərin, ixracatın artması hesabına güclənə biləcək.

Biz cənab Prezidentin qəbul etdiyi bütün qərarları dəstəkləyirik və əminik ki, bunun gözəl nəticəsi olacaq, Azərbaycanın iqtisadi inkişafı müasir dövrün çağırışına müvafiq davam edəcək, bazar iqtisadiyyatının əsası olan özəl sektorun inkişafı üçün siyasi, hüquqi və maddi dəstək təmin olunacaq, Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün münbit zəmin yaranacaqdır.

**Xudu RZAYEV,**
**Nərimanov rayonundakı**
**"Minera" MMC-nin təsisçisi.**